


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

10 may 2025-ci il
Şənbə

1933-cü ildən çıxır
№ 17 (3729)


# Tarixi dostluq, strateji əməkdaşlıq

**Azərbaycan ilə Asiya ölkələri arasında əməkdaşlıq son illər yeni inkişaf mərhələsinə qədəm qoyub. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri bu region ölkələrinin etibarlı tərəfdaş kimi tanınan Azərbaycana xüsusi marağını ifadə edir.**



## Münasibətlərdə yeni inkişaf mərhələsi başlayır

Azərbaycan Prezidenti Baş katib ilə mətbuata birgə bəyanatında deyib ki, birgə səylərimiz nəticəsində ticarət, iqtisadiyyat, mədəniyyət, təhsil, energetika, nəqliyyat və digər istiqamətlər üzrə çox ciddi əməkdaşlıq potensialı var.

Danışıqlar zamanı bu və digər istiqamətlər üzrə geniş müzakirələr aparılıb. "Energetika sahəsində imzalanmış sənədlər və apardığımız mübadilələr deməyə əsas verir ki, yaxın gələcəkdə bu sahədə əməkdaşlığımızı daha da genişləndirəcəyik", - deyə dövlətimizin başçısı vurğulayıb.

> *"Yaxın gələcəkdə Azərbaycan və Vyetnam arasında əməkdaşlıq daha da genişlənəcək"*

Prezident İlham Əliyev, həmçinin qeyd edib ki, Azərbaycan tərəfi Vyetnamda bərpaolunan enerji növlərinə sərmayə qoymağa hazırdır. Eyni zamanda müdafiə sənayesi sahəsində də çox böyük perspektivlər var. Hər iki ölkədə sənayenin bu istiqaməti kifayət qədər inkişaf edib və burada da səylərin birləşdirilməsi, birgə müəssisələrin yaradılması və qarşılıqlı əməkdaşlıq fayda gətirə bilər.

Vyetnamın Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam da qeyd edib ki, siyasi, diplomatik, energetika, müdafiə, ticarət və digər sahələrdə yaxşı nəticələr əldə edilib. Bu əsasla strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatın qəbul edilməsi ölkələrimizin münasibətlərinin tarixində yeni dövr, yeni səhifə açır. "Əminəm ki, biz yaxın zamanlarda ikitərəfli münasibətlərimizi dərinləşdirə və genişləndirə biləcəyik, inkişaf naminə üstün cəhətlərimizdən faydalanacağıq", - deyə Baş katib əlavə edib.

Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib.

O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan ümummilli lider Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub.

> *"Birgə Bəyanat münasibətlərimizin tarixində yeni dövr, yeni səhifə açır"*

Mayın 7-də Azərbaycana dövlət səfərinə gələn Baş katib To Lamın yüksək səviyyədə qarşılanması bu tarixi dostluq münasibətlərinə əsaslanırdı. Səfər çərçivəsində Prezident İlham Əliyevin Baş katib To Lam ilə həm məhdud, həm də geniş tərkibdə görüşü keçirilib.

Həmin gün iki dövlət arasında imzalanmış sənədlərin mübadiləsi mərasimi olub.

Daha sonra isə "Gülüstan" sarayında Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Vyetnam Sosialist Respublikasının Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın və xanımı No Fon Linin şərəfinə dövlət ziyafəti verilib.

# Dərin hörmət və ehtiramla anırıq

## DİN-in şəxsi heyəti Fəxri xiyabanı ziyarət edib

**Mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasından 102 il ötdü.**

**Qədirbilən xalqımız Vətənimizi taleyüklü məqamda parçalanma və müstəqilliyin itirilməsi təhlükəsindən fədakarlıqla xilas edib, ölkəmizi sabitlik, rifah və tərəqqi yoluna çıxaran xilaskarını dərin hörmətlə yad etdi.**

**Ümummilli Liderin ildönümü münasibəti ilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin əməkdaşları da mayın 9-da Fəxri xiyabana gedərək müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.**



## Ümummilli Lider yad edilib

### Prezident və birinci xanım Fəxri xiyabana gediblər

Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü qeyd olunub. Bununla əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda ümummilli liderin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla anıb. Sonra birinci xanım Mehriban Əliyeva ümummilli liderin xatirəsini dərin hörmətlə yad edib.

Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı və birinci xanım ümummilli lider Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoyublar. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olunub.

## Qələbə qəhrəmanları

### Prezident və birinci xanımdan paylaşım

Mayın 9-da Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faşizm üzərində Qələbə uğrunda mübarizədə həlak olan Azərbaycan övladlarının xatirəsini ehtiramla anıblar. Eyni zamanda dövlətimizin başçısı və Mehriban xanım Əliyeva sosial media hesablarında 9 May – faşizm üzərində Qələbə Günü ilə bağlı paylaşım ediblər.

## Regional dialoq

### Dövlət başçıları telefonla danışıblar

Mayın 8-də Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı ölkələrimiz arasında qarşılıqlı etimad və dostluğa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirilib. Dövlət başçıları ikitərəfli və regional gündəliyə aid məsələlərlə bağlı fikir mübadiləsi aparıblar.

## Fərman və sərəncamlar

*Prezident İlham Əliyev mayın 8-də incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev mayın 8-də Azərbaycan Respublikasının mədəniyyət və elm xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.*

*Prezident İlham Əliyev mayın 6-da Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin müavininin və məhkəmə kollegiyaları sədrlərinin, apellyasiya məhkəmələrinin məhkəmə kollegiyaları sədrlərinin və bəzi birinci instansiya məhkəmələri sədrlərinin təyin edilməsi haqqında Sərəncam imzalayıb.*

*"Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi haqqında Əsasnamə" təsdiq edilib. Bu barədə Prezident İlham Əliyev mayın 5-də Fərman imzalayıb.*


O, xalqımızın xilaskarıdır......................2

Nazir sıra baxışı keçirib........................3

Asayişin keşikçiləri ağac əkiblər............3

"Heydər zirvəsi"ndə..............................4

# Respublika Xəbərləri

### Hökumət başçıları görüşüb

Nazirlər Kabinetində mayın 5-də Azərbaycanın Baş naziri Əli Əsədov ilə Belarusun Baş naziri Aleksandr Turçin arasında geniş tərkibli görüş keçirilib. Görüşdən sonra Baş nazirlərin iştirakı ilə iki ölkə arasında əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb.

### Münasibətlər yenidən qurulur

Baş nazirin müavini Samir Şərifovun başçılıq etdiyi nümayəndə heyəti Suriyada səfər çərçivəsində bu ölkənin iqtisadiyyat naziri Məhəmməd Nidal əl-Şaar ilə görüş keçirib. Eyni zamanda Azərbaycan rəsmiləri Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa tərəfindən də qəbul edilib.

### İnvestisiya qoyuluşu artıb

İndiyə qədər Azərbaycanda sənaye zonalarına 6,9 milyard manatdan çox investisiya yatırılıb, 10 600-dən çox daimi iş yeri yaradılıb. İqtisadiyyat nazirinin I müavini Elnur Əliyev Bakıda keçirilən beynəlxalq konfransda qeyd edib ki, ötən müddətdə sənaye zonalarından 16,2 milyard manatlıq məhsul satılıb, bunun da 5,2 milyard manatlıq hissəsi ixrac edilib.

### Vətəndaşlar diqqətli olmalıdır

Son zamanlar kiberdələduzlar tərəfindən vətəndaşlara yerli mobil şəbəkə operatorlarının adından dələduzluq həyata keçirilir. Bu barədə vətəndaşlara müraciət edən Daxili İşlər Nazirliyi belə saxta səhifələrə qarşı diqqətli olmağı, şübhəli keçidlər vasitəsilə bank kartı və digər fərdi məlumatlarını qarşı tərəfə ötürməməyi tövsiyə edib.

### Büdcənin gəlirləri proqnozu üstələyib

Bu ilin yanvar-aprel aylarında dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb, xərclərlə əlaqədar 440 mindən çox ödəniş tapşırığı yerinə yetirilib. Belə ki, bu aylar üzrə dövlət büdcəsinin gəlirləri 13 964,9 milyon manat təşkil edib ki, bu da 4 aylıq proqnozdan 219,7 milyon manat və ya 1,6 faiz çoxdur.

### Qarabağa da qaz xətləri çəkilir

Xankəndi şəhərində 1 300 abonent təbii qazla təmin edilib, 15 sənaye obyektinə təbii qaz verilib. Böyük qayıdışla əlaqədar olaraq əhalinin köçürülməsi üçün nəzərdə tutulan Xocalının Xan yurdu və Təzəbinə kəndlərinə də qaz xətlərinin çəkilişləri davam edir.

### Yeni hava limanı tikilir

Ələt Azad İqtisadi Zonasının ərazisində inşa edilən beynəlxalq hava limanından sərnişindaşıma üçün də istifadə olunacaq. Hava limanı 750 hektar ərazini əhatə edəcək. Əvvəlcə bu obyekt yalnız yük daşınması üçün nəzərdə tutulsa da, qərar sonra dəyişib.

### Əhalinin gəlirləri artır

Son 4 il ərzində Azərbaycanda əhalinin nominal gəlirləri üzrə artım dinamikası davam edib. 2021-ci ilin I rübündə əhalinin nominal gəlirlərinin həcmi 13,5 milyard manat idisə, son 4 ildə bu göstərici 7,2 milyard manat artıb. Bu ilin yanvar - mart aylarında isə ölkə əhalisinin nominal gəlirləri 20,7 milyard manata çatıb.

### Ən az dövlət borcu bizdədir

Azərbaycan regionun ən az dövlət borcu olan ölkəsidir. Bunu Beynəlxalq Valyuta Fondunun (BVF) Yaxın Şərq və Mərkəzi Asiya Departamentinin direktor müavini Tanos Arvanitis deyib. O bildirib ki, Mərkəzi Asiya və Qafqaz ölkələri ilə müqayisədə Azərbaycanın dövlət borcu aşağı səviyyədədir. Region ölkələrinin əksəriyyətində bu göstərici ÜDM-in 30-40 faizi civarındadır.

### "Təmiz hava" aylığı başlayır

DİN Baş Dövlət Yol Polisi İdarəsi mayın 10-dan iyunun 10-dək Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə respublika ərazisində "Təmiz hava" aylığı keçirəcək. Bununla əlaqədar nəqliyyat vasitələrinin sürücülərinə, avtomobil sahiblərinə yanacaq sistemini saz vəziyyətdə saxlamaq tövsiyə olunur.

### Yük avtomobili parkı yenilənir

Hazırda Azərbaycanda yerli şirkətlərə məxsus 14 minə yaxın "TIR" adlanan nəqliyyat vasitəsi fəaliyyət göstərir. Bu da 2022-ci illə müqayisədə 10 min ədəd çoxdur.

# O, xalqımızın xilaskarıdır

## DİN-də ümummilli lider Heydər Əliyevin ildönümünə həsr olunmuş tədbir keçirilib

**Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində xalqımızın tarixində və taleyində əvəzsiz rolu olan, Azərbaycanı məhv olmaq təhlükəsindən qoruyan, müstəqil dövlətimizin banisi, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.**

Tədbir dövlət himninin səsləndirilməsi ilə başlayıb.

Sonra ümummilli liderin dövlətçilik tariximizdəki misilsiz xidmətləri barədə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev onun Azərbaycana rəhbərlik etdiyi illərin müasir tarixmizə sabitlik, milli dövlət quruculuğu, inkişaf və müstəqilliyin möhkəmləndiyi dövr kimi hakk olunduğunu bildirib. Qeyd edib ki, Azərbaycan tarixində keyfiyyətcə yeni mərhələlərin, milli inkişafı şərtləndirən fundamental islahatların sağlam təməllərini yaradan ümummilli lider demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu ölkənin əsas inkişaf yolu kimi müəyyənləşdirdi və respublikamızı qlobal miqyasda nüfuzlu, etibarlı tərəfdaş kimi tanıda bildi.





> *"Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər müasir tarixmizə sabitlik, milli dövlət quruculuğu, inkişaf və müstəqilliyin möhkəmləndiyi dövr kimi həkk olunub"*

Ölkə vətəndaşlarına gələcəyə inam yaratmaqla və onları milli mənafelər ətrafında sıx birləşdirməklə real müstəqilliyimizin möhkəm təməlini qoyan Heydər Əliyev bu təməllər üzərində dövlətçilik sütunlarını ucaltdı, özü də ümummilli lider zirvəsinə yüksəldi. Müstəqil Azərbaycanın tarixində yeni mərhələnin, böyük quruculuq dövrünün başlanması daxili işlər orqanlarının da fəaliyyətində öz əksini tapdı.

Nazir müavini bildirib ki, ümummilli lider yenidən formalaşdırdığı, daxilən saflaşdırdığı müstəqil Azərbaycan Polisinin fəaliyyətini, öz böyük təşkilatçılıq istedadı ilə ölkədaxili sabitliyin təmin edilməsinə yönəltdi. Məhz Heydər Əliyevin rəhbərliyi və nəzarəti altında görülən tədbirlə əllərdə olan on minlərlə silah və sursat yığıldı. Yüzlərlə cinayətkar dəstə zərərsizləşdirildi. 1994-1996-cı illərdə bir çox təhlükəli və xüsusilə ağır cinayətlərin, o cümlədən dövlət çevrilişlərinin qarşısı alındı.

Ümummilli lider tərəfindən respublikanın daxili işlər orqanlarında fəaliyyətin təşkilati-hüquqi bazasının möhkəm təməli yaradıldı. 1993-2003-cü illərdə onlarla qanun, fərman və sərəncam imzalandı, Nazirlik sistemində islahatlar aparılaraq dövrün tələbinə uyğun yeni qurumlar təsis edildi.

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, professor Ədalət Qasımov isə çıxışında Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsasların hələ ümummilli lider Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdığını deyib. Məhz onun Azərbaycana rəhbərlik etdiyi həmin illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh dirçəlməyə, yüksəlməyə başladı.

Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin fədakarlıq nümunəsi olduğunu deyən Ə.Qasımov bildirib ki, onun hakimiyyətinin hər iki dövründə gördüyü işlər, atdığı addımlar ölçüyəgəlməzdir. Bu gün işğaldan azad edilmiş bütün torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanması, Qarabağın və Şərqi Zəngəzurun sakinlərinə qovuşması məhz Heydər Əliyev siyasətinin təntənəsidir.

Daha sonra tədbir iştirakçıları ümummilli liderin həyat və fəaliyyətinə həsr olunmuş "İz" sənədli filminə baxıblar.

# Tarix yazan, yaradan şəxsiyyət

## Uğurlarımızın təməlində ümummilli liderin ideyaları dayanır

**Daxili İşlər Nazirliyinin Polis Akademiyasında xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.**

Tədbiri giriş sözü ilə açan Polis Akademiyasının rəisi polis general-mayoru Canpolad Daanov Azərbaycanın əldə etdiyi nailiyyətlərin və bugünkü qələbələrimizin əsasının ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edib. O, ümummilli liderin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətinin bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirildiyini vurğulayıb.

> *Heydər Əliyev hər bir azərbaycanlının qəlbində əbədiyaşarlıq qazanıb*





### O, Azərbaycanın müstəqil olacağına inanırdı

Tədbirdə çıxış edən Bakı Dövlət Universitetinin tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İbrahim Zeynalov qeyd edib ki, Azərbaycanın suveren, müstəqil ölkə kimi formalaşmasının özülləri hələ ümummilli lider Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza rəhbərliyi dövründə atılıb. Məhz onun Azərbaycana rəhbərlik etdiyi həmin illərdə bugünkü dövlət müstəqilliyimizin təməli qoyulub, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başlayıb, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atılıb.

### Gənclərə etimad göstərirdi

Məhz ümummilli liderin rəhbərliyi ilə hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərilib, azərbaycanlıların dövlət vəzifələrinə irəli çəkilməsi daim diqqət mərkəzində saxlanılıb.

Ümummilli lider Heydər Əliyevin həyatının çoxşaxəli fəaliyyət istiqamətlərindən ətraflı bəhs edən İ.Zeynalov bildirib ki, ömrünü ölkəmizin tərəqqisinə və xalqımızın parlaq gələcəyinə həsr edən ümummilli lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla xalqı əsl müstəqilliyə qovuşduraraq hər bir azərbaycanlının qəlbində əbədiyaşarlıq qazanıb.

Tədbirin sonunda Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

*"Polis"*

# Nazir sıra baxışı keçirib

## Xidmətə qəbul ediləcək gənclərə tapşırıq və tövsiyələr verilib

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 7-də respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**





Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 215 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 16 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Asayişin keşikçiləri ağac əkiblər

## Ümummilli liderin ildönümünə həsr edilmiş tədbirlər davam etdirilir

Müstəqil Azərbaycanın memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə əlaqədar Daxili İşlər Nazirliyinin əməkdaşları və hərbi qulluqçuları Suraxanı rayonu ərazisindəki yaşıllıq massivində növbəti ağacəkmə kampaniyası keçiriblər.









Əvvəlcə polis əməkdaşları və hərbi qulluqçular ərazidə olan bitkilərə qulluq göstərib, yaşıllıq zonasında təmizlik işləri aparıblar. Sonra yerli iqlimə uyğunlaşdırılmış zeytun tinglərini əkib, onların suvarılmasını təmin ediblər. Tinglərin küləkdən qorunması və normal böyümələri üçün qoruyucu dirəklər basdırıblar.

Ərazinin nəzarətdə saxlanılması, əkilmiş ağaclara mütəmadi qulluq göstərilməsi üçün müvafiq tədbirlər bundan sonra davam etdiriləcəkdir.

# Partizan polis

## Gənclərə örnək olan qəhrəmanın ömür yolu

Mayın 8-də Gəncə Şəhər Baş Polis İdarəsinin, Daşkəsən Rayon Polis Şöbəsinin şəxsi heyəti və veteranları İkinci dünya müharibəsi iştirakçısı, uzun müddət daxili işlər orqanlarında çalışmış Mirdamət Seyidovun məzarını ziyarət ediblər.

Ziyarətçilər qəhrəmanın məzarına tər çiçəklər qoyub, onun əziz xatirəsini anıblar.



Daha sonra polis veteranı Əjdər İsgəndərov gənc əməkdaşlara Mirdamət Seyidov haqqında məlumat verib. Qeyd olunub ki, Mirdamət Seyidov müharibə başlayan ilk gündən tibb təhsilini yarımçıq qoyaraq digər həmyerlilərimiz kimi cəbhəyə yollanıb. Müharibə dövründə bir neçə dəfə əsir düşən Seyidov hərbi düşərgələrdən qaçaraq partizanlara qoşulmuşdur. O, qələbənin əldə olunmasında göstərdiyi igidliyə görə, Yuqoslaviyanın "İgidliyə görə" və "Xalq qarşısında xidmətlərinə görə" ordenləri, "İtaliyanın fəxri vətəndaşı" fəxri adına və bir çox medallara layiq görülüb. Müharibədən sonra uzun müddət Daxili İşlər Nazirliyində müxtəlif vəzifələrdə çalışıb, milis polkovniki rütbəsinə qədər yüksəlib.

Baş Polis İdarəsinin Veteranlar Şurasının sədri Məhəmməd Hümbətov bildirib ki, gənc əməkdaşlar qəhrəmanlarımızı tanımalı, onların hünər, şərəf yolunu layiqincə davam etdirməlidirlər.

Ziyarətçilər daha sonra şəhid məzarlarının, eləcə də xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının və "Əbədi məşəl kompleksinin qarşısına gül dəstələri qoyublar.

# Təbiətin də keşiyindəyik

## Gəncədə həmkarlarımız ağac əkiblər



Gəncədə polis əməkdaşları "Konstitusiya və Suverenlik ili" ilə əlaqədar ağacəkmə kampaniyası keçiriblər. Ağacəkmə aksiyasında Gəncə Şəhər Baş Polis İdarəsinin əməkdaşları fəal iştirak ediblər. Heydər Əliyev park-kompleksinin ərazisində və Nizami Gəncəvinin məqbərəsi ətrafında 2 mindən artıq eldar şamı və dekorativ ağaclar əkilib. Yeni əkilən tinglər suvarılıb, onlara aqrotexniki qulluq göstərilib.

# Odlu silahı təhvil verdi

## Sumqayıtda və Yasamalda polis tədbir keçirib

Polis əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silahların əməliyyat yolu ilə aşkarlanması və könüllü təhvil verilməsi istiqamətində tədbirlər davam etdirilir.

Polis əməkdaşlarının keçirdikləri növbəti profilaktik tədbirlər nəticəsində Yasamal rayon sakini olan bir nəfər 1 avtomat silahı, 1 patron darağı və 30 ədəd patronu könüllü olaraq polisə təhvil verib.

Sumqayıt şəhəri ərazisində isə polis əməkdaşları tərəfindən 1 qumbara və 7 ədəd patron tapılaraq götürülüb.

Araşdırmalar aparılır.

# Soyğunçuluq etmişdi

## Keçmiş məhkum yenə tutuldu

Səbail rayonu ərazisində naməlum şəxs soyğunçuluq yolu ilə 51 yaşlı qadına məxsus içərisində bank kartları və sənəd olan pulqabını talayıb.

Səbail RPİ 8-ci Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 33 yaşlı M.Nəzərov saxlanılıb.

Araşdırmalar aparılır.

# Dələduzlar saxlanılıb

## Vətəndaşların şikayəti təmin olunub

Binəqədi rayonu ərazisində dələduzluq hadisəsi qeydə alınıb. Belə ki, əmlakın sənədləşdirilməsi vədi ilə bir nəfəri aldadıb 30 min manat ələ keçirən 65 yaşlı Ə.Məmmədov polis əməkdaşları tərəfindən müəyyən olunaraq saxlanılıb.

Nərimanov rayonunda da bir nəfərə dələduzluq yolu ilə 1065 manat maddi zərər vurmuş 27 yaşlı E.Bəşirov saxlanılıb.

Araşdırmalar aparılır.

# Narkotik əməliyyatı

## Baş İdarə qanunsuz dövriyyənin qarşısını alıb

Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən Qaradağ rayonunda keçirilən növbəti əməliyyat zamanı 41 yaşlı Qubad Məmmədov tutulub. Onun narkotiklərin qanunsuz dövriyyəsi zamanı istifadə etdiyi gizli saxlanc yerindən 14 kiloqram tərkibinə zərərli maddələr əlavə edilmiş marixuana və 3 kiloqram 300 qram psixotrop maddə metamfetamin aşkarlanıb.

Q.Məmmədov ifadəsində narkotik vasitələri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı vasitəsilə Suraxanı rayonu ərazisindən götürdüyünü və ayrı-ayrı ünvanlara çatdıraraq maddi qazanc əldə etmək niyyətində olduğunu bildirib.

Faktla bağlı cinayət işi başlanılıb. Saxlanılan şəxs barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

# Oğru usta imiş…

## İşlədiyi evdən oğurluq etdi

Mayın 1-də Binəqədi rayonu ərazisində yerləşən evlərin birindən 1000 manat dəyərində naqil oğurlanıb. Binəqədi RPİ 5-ci Polis Bölməsi əməkdaşları tərəfindən keçirilən tədbirlərlə əməli törətmiş, həmin evdə usta olaraq çalışan 38 yaşlı Q.Əliyev müəyyən olunaraq saxlanılıb.

# Heydər Əliyev və tariximiz

## O, milli və mədəni irsimizin qorunmasının ən böyük fədakarıdır

**Diqqətinizə çatdırdığımız və indiyədək bilinməyən bu faktları AMEA-nın Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov üzə çıxarıb.**

### Qəbələ RLS-in yerini dəyişdirtdirib

Qəbələ RLS-in əsası ötən əsrin 70-ci illərində qoyulub. Həmin vaxt ümumittifaq miqyaslı layihə institutları fəaliyyət göstərirdi. Belə institutlardan birində işləyən erməni qadın Qəbələ RLS-in layihəsini hazırlayır. Layihəyə görə, RLS tikilərkən ora gedən yüksək gərginlikli elektrik xətlərinin dirəkləri birbaşa Çuxur Qəbələdə, rayonun keçmiş paytaxtının yerində basdırılır. Məlum olduğu kimi, burada möhtəşəm qala divarlarının xarabalıqları qalır və Çuxur Qəbələ kəndinin həndəvərində aparılan arxeoloji qazıntılar nəticəsində antik dövrə aid qədim Qəbələ şəhərinin yeri aşkara çıxarılmışdı. Bura dirəklərin basdırılması, abidələrin məhv edilməsi Azərbaycan xalqının tarixinə böyük təcavüz olardı. Bunu görən arxeoloq Firudin Qədirov gecə saatlarında AMEA-nın "Qədim tarix şöbəsi"nin müdiri, professor İqrar Əliyev Qəbələdə baş verənlərlə bağlı məlumatlandırır. İqrar Əliyev də Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi işləyən Qurban Xəlilova müraciət edib məsələni Heydər Əliyevə çatdırmasını xahiş edir. Ali Sovetin sessiyası olduğuna görə, Q.Xəlilov bu barədə birbaşa H.Əliyevə məlumat verir.

Heydər Əliyev elə həmin gün İqrar Əliyevlə görüşür. Ümummilli lider vaxt itirmədən SSRİ Silahlı Qüvvələrinin ən yüksək vəzifəli şəxslərindən biri, hərbi hava qüvvələrinin baş komandanı olan marşalla zəng vurub danışır. Ertəsi gün Mərkəzi Komitədə iki marşalın iştirakı ilə büro iclası keçirilir. Heydər Əliyev orada üzünü



marşallara tutaraq: "Sizə kim ixtiyar verib ki, mənim millətimin tarixinə təcavüz edirsiz?",-deyir. İclasdan sonra komissiya yaradılır, məsələ müzakirə olunur. Növbəti iclasda verilən qərara görə, həmin dirəklər tarixi abidənin yanından çıxarılaraq 1 km aralıda basdırılır. Bununla da Azərbaycan xalqının şimal torpaqlarında yaratdığı ilk dövlətin paytaxtından qalan abidənin dağıdılmasına imkan verilmir.

### Nizami Gəncəvinin məqbərəsinin Şəmkirə köçürülməsinə mane olub

1977-ci ildə Gəncədə alüminium zavodunun tikintisi məsələsi gündəmdəymiş. Tikinti zamanı guya Nizaminin məqbərəsinin ziyan görə biləcəyi səbəbindən bəzi "Nizamisevənlər" onun Şəmkir yoluna çıxarılması təklifini dəstəkləyirlər. Xəbər Heydər Əliyevə çatanda o buna qəti etiraz edir və Gəncəni Nizamidən, Nizamini Gəncədən ayırmağın ən böyük tarixi cinayət olduğunu deyir. Ümummilli lider bu məsələ ilə bağlı Mərkəzi Komitədə ayrıca iclas keçirərək məqbərənin Gəncədən köçürülməsinin qarşısını alır.

### Dağlıq Qarabağla bağlı gizli layihənin qəbuluna imkan verməyib

1958-ci ildə Bakıya gələn erməni katalikosu II Vazgen Azərbaycan SSR Nazirlər Sovetinin sədri Sadıq Rəhimovla görüşür. II Vazgen ondan xahiş edir ki, "Dağlıq Qarabağ ərazisi ermənilərə verilsin". Sadıq Rəhimov bərk əsəbiləşir və ona ağır cavab verir. Vazgen İrəvana qayıdandan sonra Azərbaycan xalqına qarşı böyük bir kampaniya başlayır. Mirzə İbrahimovu, Sadıq Rəhimovu, İmam Mustafayevi millətçilikdə ittiham edib vəzifələrindən uzaqlaşdırırlar. Bu cür cəhdlər 1970-ci illərdə də davam edirdi, ermənilər Qarabağdan əl çəkmirdilər. 1972-ci ildə bir dəfə belə bir cəhdin qarşısı Heydər Əliyev tərəfindən alınır. 1977-ci ilin noyabrında SSRİ Nazirlər Soveti Rəyasət Heyətinin məxfi iclası keçirilir. İclasda Dağlıq Qarabağın Azərbaycanın tərkibindən çıxarılaraq Ermənistana verilməsi ilə bağlı qərar layihəsi qəbul edilməli idi. Bundan xəbər tutan Heydər Əliyev gecə ikən tarixçi İqrar Əliyevlə danışır. Professorun bu məsələ ilə əlaqədar 1945-ci ildə Mircəfər Bağırov üçün yazdığı arayış arxivlərdən tapılır və yenidən işlənilir. Arayış hazır olandan sonra MK-nın iclası keçirilir, təsdiqlənir. Heydər Əliyev bu sənədlə birlikdə Brejnevin yanına gedir və həmin məxfi layihənin nəinki qəbuluna, heç müzakirəsinə də imkan vermir.

# Azərbaycanı dünyaya tanıdan lider

## Haqqında deyilən fikirlər böyük rəğbətin nümunəsidir

**Dünya siyasətinin öndə gələn simaları arasında ümummilli lider Heydər Əliyevin adının çəkilməsi, onun şəxsiyyət bütövlüyü haqqında deyilən fikirlər dünən olduğu kimi, bu gün də qürur doğurur. Həmin fikirləri diqqətinizə çatdırırıq.**

**Oğul Corc Buş, Amerika Birləşmiş Ştatlarının keçmiş prezidenti**

-Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Vladimir Putin, Rusiya Federasiyasının Prezidenti**

-Heydər Əliyev bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış görkəmli dövlət xadimidir. Uzun illər ərzində onun səmərəli fəaliyyəti xalqlarımızın ümumi tarixi ilə bilavasitə bağlı olmuşdur. O, Rusiya və Azərbaycanın strateji tərəfdaşlığının təməlini qoymuş, dostluğumuzun və qarşılıqlı anlaşmamızın möhkəmlənməsinə böyük şəxsi töhfə vermişdir. Onun vəfatı bütün beynəlxalq birlik üçün əvəzsiz itkidir.

**Toni Bleyer, Böyük Britaniyanın keçmiş baş naziri**

-Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxınlaşdırdı. Onun 1998-ci ilin iyulunda Britaniyaya uğurlu səfəri, xüsusilə də, Dauninq küçəsi 10 ünvanında yerləşən iqamətgahımda bizim görüşümüz yaxşı yadımdadır. O, Azərbaycanla Birləşmiş Krallıq arasında hazırda mövcud olan güclü əlaqələrin təməlini qoydu.

**Jak Şirak, Fransa Respublikasının keçmiş prezidenti**

-Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna səbir çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim.

**Xu Szintao, Çin Xalq Respublikasının keçmiş sədri**

-Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır.

**Rəcəb Təyyib Ərdoğan, Türkiyə Respublikasının prezidenti**

-Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

**Kraliça II Elizabet**

-Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram.

**Məhəmməd Xatəmi, İranın keçmiş prezidenti**

- Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcək.

**Georgi Pırvanov, Bolqarıstan Respublikasının keçmiş prezidenti**

-Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaqdır. Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk.

**Vladimir Voronin, Moldova Respublikasının keçmiş prezidenti**

-Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər.

**Gerhard Şröder, Almaniya Federativ Respublikasının keçmiş federal kansleri**

-Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərpərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır.

**II İohan Pavel, keçmiş Roma papası**

-Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

# "Heydər zirvəsi"ndə

## Xalqın xilaskarına ehtiramın və yüksək peşəkarlığın nümunəsi

DİN-in İdman Cəmiyyətinin və Əlahiddə Çevik Polis Alayının bir qrup əməkdaşı ümummilli lider Heydər





Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə mayın 1-i və 2-də Qusar rayonunun Qızılqaya dağ massivinin 3751 metr hündürlüyündə yerləşən "Heydər zirvəsi"nə yürüş ediblər. Çətin hava şəraitinə baxmayaraq həmkarlarımız mürəkkəb relyefə malik dağlıq ərazini böyük əzmkarlıqla qət edərək Azərbaycanın dövlət bayrağını dağın zirvəsinə qaldırıblar.

# Turnir başa çatdı

## Komandamız üçüncü yerdə qərarlaşıb

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş dövlət qurumları arasında minifutbol turnirinin mükafatlandırma mərasimi keçirilib.



Turnirin qalibi Ədliyyə Nazirliyinin komandasına qızıl, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin təmsilçisinə gümüş, Daxili İşlər Nazirliyinin kollektivinə isə bürünc medallar təqdim olunub.

Həmçinin turnirin ən yaxşı oyunçusu, ən yaxşı qapıçısı və bombardiri də mükafatlandırılıb.

Qeyd edək ki, Bakı Tennis Akademiyasında baş tutan həlledici matçda Ədliyyə Nazirliyinin komandası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin kollektivini 3:0 hesabı ilə məğlub edib. Daxili İşlər Nazirliyinin komandası isə üçüncü olub.

# Marafona qoşuldular

## "Küləyə qalib gəl"dilər

Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən "Bakı Marafonu 2025"in qalibləri müəyyənləşib. "Küləyə qalib gəl" şüarı ilə keçirilən marafonda kişilər arasında yarışın qalibi türkiyəli Atac Sezgin olub. Ukraynalı Vitali Şafar finiş xəttini ikinci, Türkiyənin digər təmsilçisi Murat Emekdar isə üçüncü keçib. Qadınların mübarizəsində isə ukraynalı Natalya Semenoviç finişə hamıdan tez çatıb. Azərbaycanı təmsil edən Anna Yusupova ikinci, yaponiyalı atlet Eriko Soma üçüncü yerə layiq görülüb. Qaliblərə pul mükafatları və medallar təqdim olunub.

Qeyd edək ki, 28 minədək iştirakçının qeydiyyatdan keçdiyi marafona həmkarlarımız da qoşulub. DİN Əlahiddə Çevik Polis Alayının əməkdaşı polis serjantı Elşad Nəsibov finişə çatan ilk 25-likdə yer alıb. Alayın digər əməkdaşları polis serjantları Muhammədəli İsmayılov, Möhlət Məmmədov və Afiyəddin Zeynalov da marafonda fərqləniblər.









POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik